# Amnistiya aktı cəzaçəkmə müəssisələrində icra olunur

Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş Milli Məclisin qəbul etdiyi amnistiya aktının icrasına başlanılıb.

AZƏRTAC xəbər verir ki, növbəti icra prosesi dekabrın 22-də Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin Bakı İstintaq Təcridxanasında həyata keçirilib. Təcridxanada cəzaçəkən 12 məhkum azadlığa buraxılıb.

* * *

Növbəti icra prosesi dekabrın 22-də Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin 7 saylı məntəqə tipli cəzaçəkmə müəssisəsində icra olunub.

Məntəqədə cəzaçəkən 20 məhkum azadlığa buraxılıb.

* * *

Dekabrın 22-də səhər saatlarında Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 4 saylı cəzaçəkmə müəssisəsində saxlanılan məhkumların 22 nəfəri azad edillib. Qadın məhkumlardan 2-si azyaşlı övladı ilə birgə cəza çəkən məhkumlardır.

* * *

Növbəti icra prosesi dekabrın 22-də səhər saatlarında Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Yetkinlik yaşına çatmayanlar üçün penitensiar müəssisəsində baş tutub. Bu müəssisədə cəza çəkən 3 məhkum azadlığa buraxılıb.

* * *

Dekabrın 22-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində amnistiya aktının icrasına başlanılıb. Naxçıvanda amnistiya aktı 128 məhkuma şamil edilib, 57 nəfər azadlığa buraxılacaq. Bu gün isə ilkin olaraq 15 nəfər azadlığa buraxılır. Onların 2-si Türkiyə, 2-si İran 2-si Türkmənistandan olmaqla 6-sı əcnəbi vətəndaşdır, biri qadındır.







Qeyd edək ki, Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibətilə Milli Məclisə təqdim etdiyi Amnistiya qərarının layihəsi əhatə dairəsinə görə Azərbaycanın müstəqillik dövründə ən genişmiqyaslı amnistiya sənədi kimi qiymətləndirilir.

Amnistiya aktının layihəsinə əsasən, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistan Respublikasının mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur.

Bununla yanaşı, layihəyə əsasən, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaq. Belə ki, Amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

Amnistiya aktı 4 ay ərzində icra ediləcək.

Azərbaycan. - 2025.- 23 dekabr (№269).- S.10.